## A. Makulu (Pənahi) yaradıcılığında milli azadlıq hərəkatının təsviri

XX əsrin əvvəllərindən başlayaraq ABŞ başda olmaqla xarici dövlətlərin təzyiqi ilə və öz satqınlığı ucbatından Rza xan Pəhləvi İranda yaşayan xalqların, xüsusilə azərbaycanlıların həyatını cəhənnəmə çevirmişdi. Rza xan hakimiyyətə gələn kimi Səttərxan inqilabından sonra əldə olunan bir çox demokratik hüquqları ləğv etdi. Fars olmayan insanlara əziyyətlər edildi. Azərbaycan dili, İranda yaşayan azərbaycanlı xalqların dili qadağan edildi. Farslar kürdlərə qarşı da amansız idi. Azərbaycanlılar yaşayan ərazilər üçün ayrılan maliyyə vəsaiti gözəgörünməyən dərəcədə cüzi idi. 1941-1946-cı illər hadisələrinə - milli azadlıq hərəkatına qədər ümumi vəziyyət belə idi. Odur ki, Cənubi Azərbaycanda yaşayan həmvətənlərimiz demokratik haqları uğrunda mübarizəyə yenidən başladılar. 1945-ci ilin sentyabr ayında Təbrizdə 1500 nəfər nümayəndənin iştirakı ilə konfrans keçirtdilər. Konfransda öz vətənlərində hüquqsuz vəziyyətdə yaşayan azərbaycanlıların hayqırışı rəsmi sənəd şəklində təsdiqlənərək Londonda keçirilən beş iri dövlətin xarici işlər nazirlərinin şurasına göndərildi. Müraciətdə Azərbaycan xalqının ağır həyat tərzi bütün detallarına qədər öz əksini tapmışdı. Onların tələbləri də mübarizəyə qalxan bir xalqın hüquq və azadlıq tələbi idi. Azərbaycan xalqı öz milli tərəqqisinə nail olmaq, öz dilində övladlarına təhsil verilməsi arzusu və tələbində idi. İran daxilində öz muxtariyyətini qurmaq istəmələri azərbaycanlıların ən qanuni haqqıydı. Azərbaycan dilində orta məktəblərin, universitetin olmasını, iş yerlərinin təşkil olunaraq işsizliyin aradan qaldırılmasını istəmək müqəddəs bir arzu idi.

Azərbaycan Demokratik Firqəsi də belə məsələlərin həlli üçün öz bayrağını qaldırırdı. Elə 1945-ci ildən-yarandığı vaxtdan xalq firqənin məramnaməsini dəstəklədi və təşkilatlandı. Amerika, İngiltərə kimi nəhəng dövlətlər, onların əlaltıları olan İran hakimiyyət orqanlarının nümayəndələri xəyanət yolu tutdu. Hökumət muxtariyyəti təsdiq etdi və sonra əl altından bu azadlığı onların əlindən aldı. Azadlıq hərəkatı qan içində boğuldu, əldə olunan bütün nailiyyətlər ləğv edildi.

A.Makulu bir neçə əsərində milli azadlıq hərəkatını, onun iştirakçılarının həyat və fəaliyyətini, əldə olunan nəticələrin qəddarcasına məhv edilməsini bədiyyatın dili ilə qələmə almış, xalqın azadlıq duyğularının öldürülməsini, şəxsi ədavəti, Rza şahın müstəbid və hiyləgər davranışlarını ifşa etmişdir. "Təbriz gecələri", "Sirli çoban" hekayələrində, "Gizli zindan" povestində, "İntiqam dəstəsi", "Qırmızı aşıqlar", "Səttərxan" əsərlərində müəllif İngiltərə və Amerikanın silahlandırdığı İran müstəbidlərinin azadlıq hərəkatına tutduğu divan real təsvirlərlə əks olunmuşdur. Baxmayaraq ki, Makulu yüksək təhsil görməmişdir, yalnız mədrəsə təhsili görmüşdür, öz üzərində işləmiş, qəzetlərlə ciddi əlaqə saxlamış, əsərlərində Azərbaycan xalqının inqilabi mübarizəsini bədii və realist şəkildə təsvir etməyi bacarmışdır. Onun əsərlərindən məlum olur ki, xalq ADF-yə inanmış, onun fəaliyyətinə nicat yolu kimi baxmışdır. İran irticasının törətdikləri vəhşətlərdən qorxmayaraq azadlıq uğrunda mübarizəsini davam etdirmişdir. Makulu sadə xalqın nümayəndəsi olub. O, xalqın gücündən cəsarət alaraq onun mübarizəsini əsərlərinin mövzu dairəsinə çevirmişdir.

Makulu "Təbriz gecələri" hekayəsinin əvvəlində mənfi qəhrəmanlarının görüşünü "həriflərin tanışması" kimi təqdim edir. Xalvuran Heydər və Çapıq Qənbər çox dərdlidir. Bu iki "qəhrəman", ailələri və dostları milli hökumətin bir illik fəaliyyəti dövründə "əzab içərisində" yaşamışlar. Çapıq Qənbər deyir: "...bu bir ildə çəkdiyim əzabı it də çəkməsin. Adamın bu bir ildə keçirdiyi günlər yadına düşəndə hirs vurur başına, deyir elə çıx küçəyə, qabağına gələni öldür. Gədə, Qənbər hara, fəhləlik hara? Gör mən nə günə qalmışdım ki, bağlarda bel təpmək ilə yarım qarın dolanırdım. İşləməkdən əllərim qabar olubdur" (1,124). Bu danışığın müqabilində öz cırıq parça ayaqqabısını, yamaqlı palto və çirkli papağını nişan verən Xalvuran Heydər onun kimi yanıqlı-yanıqlı pis gün üçün yığdıqlarını da xərclədiyini etiraf edirdi. Görəsən Çapıq Qənbər, Xalvuran Heydər və dostlarını Milli Hökumət dövründə gizlənməyə, dilənməyə nə vadar edirdi? Onların gözünü nə qorxutmuşdu ki, məhkəməyə düşməmək üçün gizli həyat yaşayırdılar? Milli hökumətdən qaçaq düşən yoldaşlar bəzi kiçik oğurluqlar ilə keçinirdi. İkisinin də yaxın dostu Dabanıçəkik Məmmədi silahlı görən dostlar düşündülər ki, o, fədai yazılıb. Yoxsa belində tapança küçəyə çıxa bilməzdi. Əslində, Məmməd kimi adamlara Milli hökumətin tərkibində yer verilməsinə onlar özləri də inanmazdı. Eşidəndə ki, Milli hökumətin yıxılma xəbəri doğrudur, köhnə dostlarını gülər üzlə qarşıladılar. Azərbaycan Milli Hökuməti dövründə dar ağacından asılan Qarnıyırtıq Kazımın yoldaşları olan bu üç nəfərdə insanlıq sifəti, iradə, etibar yoxdur. Hərəkətləri və baxışlarından şeytanlıq yağır. Milli Hökumətin yıxılması bəlalərinin işinə gəlir. Çünki işləmirlər. Özlərinin və ailələrinin günlük dolanışığını cibgirlikdən, oğurluqdan, satqınlıqdan, restoran müdirlərini qorxudaraq qarınlarını müftə yeməklə doyuzdurmaqdan çıxarırdılar. Artıq qarışıqlıqdır. Əllərinə silah da keçirtsələr, insanları asanlıqla qorxuda bilərlər. Eşitdikləri xəbərlərin inandırıcılıq payının yüksək "oranda" olması onların yadına keçmiş günləri salır. "İşlərin dəyişilməsi", qarışıqlıq onların xeyrinədir. Restoranlarda cız-bız yemək, hətta "abi-kövsər" (burada şərab mənasında) suyu içmək müftə olacaq. Təbrizin məşhur qatil və soyğunçusu Qarnıyırtıq Kazımın yoldaşlarından nə gözləmək olar? Onlara tox qarın, beldə silah gəzdirmək, oğurluqla əldə edilən təzə başmaq, papaq və libas azadlıqdan, müstəqillikdən, ana dilinin qorunmasından qiymətlidir. Vətəndaşlıq hissi olmayan Dabanıçəkik Məmmədi "Dövran bizimdir, gədə" deməyə sövq edən də budur. İki yoldaş fövqəladə diqqətlə dinləyir, digəri onları intizarda qoymayaraq Milli hökumətin təhlükədə olduğunu zövqlə anladır. Qeyrətlərini bir qarın çörəyə, berno tüfəngə və bellərinə bağladıqları bir qatar fişəngə satan bu insanlar əcnəbilərin qarşısında ikiqat əyilib həmvətəninə silah tuşlamağı ar bilməyən "vicdan" sahibləridir. Dabanıçəkik Məmməd: "Tez olun, gedək Həsənxandan sizin üçün də silah alaq!" – dedi (1,127). Bu silahlar səhərisi gün Milli Hökumətə tuşlanacaq, Təbriz küçələrini qana boyayacaqdı.

Təhsil görməmiş Makulu o dövrlərdə həyat dərsini elə aldı ki, indi də "Cənubi Azərbaycan ziyalısı və ictimai xadimi" kimi qiymətləndirilir. İ.Novruzov yazır: "...müəllif ingilis-amerika silahı zoruna İran mürtəcelərinin Azərbaycan xalqının milli azadlıq hərəkatına divan tutmalarını, İranın hakim dairələrinin "məhv olmuş" hesab etdikləri bu inqilab qığılcımlarının əslində, daha şiddətlə alovlanmasını göstərməyə çalışmışdır" (1,6). Əcnəbilərin əlində oyuncağa çevrilmiş həsənxanlar xalqın bir qisim nümayəndəsini "ələ alıb" qardaş qırğını salmaqla, əslində, özlərinin də həyatlarını zəhərləyirlər. Sənin vətəninə əl uzadan sənin dostun ola bilməz. Amerika konsulunun göndərdiyi maşın silah təbrizlilərin bir-birini öldürməsinə sərf olunacaq. Nəhəng dövlətlərin "parçala, hökm sür" siyasəti çox qəddarcasına düşünülmüş bir siyasətdir ki, bunu tam anlamı ilə qavrayan Makulu fikirlərini əsərlərində bədii şəkildə əks etdirmiş, məzmunlu, oxunaqlı ədəbi nümunələr ərsəyə gətirmişdir. Onun yaratdığı obrazlar həyatdan götürülmüş xarakterlərdir ki, əksəriyyəti 1945-1946-cı illərdə Təbrizdə birə-bir yaşamışlar. Həsənxan doktor İsgəndərxanın evindən silah daşıyır, əlaltıları da onun evindən silah, fişəng götürərək axşam saat doqquz olmamış şəhərə qorxu və dəhşət saçır, özləri deməşkən "gecə şikarına" çıxırlar. Vətən xainləri gecə doqquzdan sonra tüfəng səsi ilə xalqı qorxuya salır, şəhərin küçələrində terror əsdirir. Makulunun çapıq Qənbəri qarnını



"yasdan çıxardıb", boğazını isladıb. Bu "vacib" işlərdən sonra silahı kəmərinə bərkidib deyir: "Məsələ aydındır, bundan sonra bir biz varıq, bir də Təbriz gecələri" (1,128). Dost, düşmən seçilməyən Təbriz gecələrinin sükutunu güllə səsləri pozur. O güllə səsləri ki, azadlığa, vətənpərvərliyə, dil azadlığına-bir sözlə vətənə tuşlanıb. Küçələr çox qarışıqdır. Ancaq "Təbriz gecələri"nin "qəhrəmanı" belə bir vəziyyətdə özünü "Xurşid" restoranına çatdırmağa çalışır. Mənəvi cəhətdən çox cılız obrazdır çapıq Qənbər. Qarışıqlıq olduğu üçün restoran tez bağlanıb. Ancaq "boğazını otaran" "ədəbi qəhrəman" şantaj yolu ilə restoran sahibi Əkbər ağanı demokratlıq ilə töhmətləndirərək restoranı açdırır. Xalvuran restoran qulluqçusunun kefini tüfəng qundağı ilə soruşur. "Üç dost" əmrlər yağdırır, üstün xidmət istəyir. Makulu yazır: "Bayaqdan bəri qarın dolusu çörək yemək arzusunda olanlar indi "Xurşid" restoranının ən bahalı içkilərindən bol-bol içir və ləzzətli xörəklərindən yeyib kef edirdilər. Onlar özlərinə məxsus ədə və hərəkətlər ilə danışır, qəliz söyüşlər söyür, pis yerlərdə, yəni "qara dam-daşda" oxunan təsniflərdən oxuyur və sonra çığırıb deyirdilər: "Banlama xoruz, açılma sabah" (1,129). Qara gecələr qara qüvvələrin pis əməllərinin üstünü örtür. Suçlu qorxaq olur, deyirlər. Onlar gün işığından çəkinən, eybəcər xarakterlərinin qurbanı olan insanlardır. İçdikcə xarakterləri daha da açığa çıxan bu "qansızlar" badələrini Milli Hökumət düşmənləri-əcnəbidən silah daşıyan Həsənxan, İsgəndərxan və Qəvamüssəltənənin sağlığına qaldırıb axır damcısına qədər içirlər. Süfrədə söhbətləri demokratların bir ildə gördüyü işlər barəsindədir. Demokratların əxlaqsız qadınları Azərbaycandan sürgün etmələri "dostları" narahat edib. 24 saatın içində hər şey dəyişir. Azərbaycan Milli Hökuməti ilə sözləşmə imzalayan Qəvamüssəltənə Amerika silahının gücü ilə Cənubi Azərbaycana hücum edərək qardaş qanı tökülməsinə şərait yaradır. İnsan ölümünün qarşısını almaq üçün Azərbaycan hökuməti silahı yerə qoyur. Ancaq bu addım gözü dönmüş nadanları sakitləşdirə bilmir. İndi işlər yenə də Qarnıyırtıq Kazım kimi adamların əlinə keçmişdi. Onlar bir il müddətində əl-qollarını bağlayan demokratlardan intiqam almağa, həm də vaxtdan istifadə edərək talan yolu ilə özlərinə "bir gün ağlamağa" çalışırdılar. Çapıq Qənbər də, yoldaşları da bu fikirdə olan adamlardan idi. Restoran sahibini silahla qorxudaraq sabaha qədər özlərinə qulluq etdirən çapıq Qənbər cibində pulu olan, hesab vermək istəyən insanlar kimi qaşığı boşqaba vurub restoran xidmətçisini çağırır və hesab istəyir. Əkbər ağa dəfələrlə qonaq olmalarını xahiş edir. Makulu Çapıq Qənbər obrazının cılızlığını, rəzilliyini bu məqamda bir daha sərgiləyir. Cibində bir qəpik pulu olmayan Qənbər 31 tümən 6 qran hesabı eşidəndə deyir ki, 50 tümən yaz mənim adıma, yekə oğlan olanda verərik, üstünün 18 tümən 4 qranını da gətir ver. Pulları utanmadan, hətta sayaraq cibinə qoyur. Bu cür böyük bəladan 50 tümən xərclə və bir gecə yuxusuzluqla qurtaran restoran sahibi Əkbər ağa sevinərək "möhtərəm" qonaqlarını pillələrin başına qədər ötürür. Təbrizin İmami dərbəndi, Firdovsi Xiyabani, Mir Əhməd divanxanasının ətrafı, Postxana küçəsi kimi hörmətli əraziləri gecənin qaranlığında əyyaş Dabanıçəkik, Xalvuran və Çapıq Qənbərin söyüşləri ilə murdarlanır. Milli Hökumət əleyhdarları şəhərdə qətl-qarətlə məşğuldur. Makulu baş verənləri elə həssaslıqla, səmimi şəkildə təsvir edir ki, antidemokrat obrazlarının qaniçənliyini gecənin qaranlığı belə gizləyə bilmir. Təkəbbürlə danışan, ancaq pişik tappıltısından qorxan obrazlarının mənəvi gücsüzlüyünü Dabanıçəkiyin dili ilə belə təsvir edir: "Yoldaşı qurda verənlər, hələ danışmağa diliniz də var. Diliniz olmasa qarğalar gözünüzü oyar. Gədə, bəlkə də, elə pişik olmayıb, demokratların atdığı bomba olaydı?" (1,133). Şəhərdə qarışıqlıqdır. Dostlar keflidir. Dabanıçəkik Məmməd hər gördüyünü demokrat sanır, qorxusundan "A kişi, vallah, mən özüm də demokratam" deyə sayıqlayır. Hələ ayılmamış üç nəfər Tərbiyət xiyabanına dönəndə silahsız birinin gəldiyini görürlər və onu tanıyırlar. Çapıq deyir: "Gədə, tanıdım. Məhəmməd Bağır Niknamdır, özü də şairlik edərdi. Fürsəti əldən verməyə gəlməz. Özünün də dalı bizədir" (1,134). Çapıq Qənbərin sözləri bitməmiş Dabanıçəkikin gülləsi Azərbaycanın inqilabçı şairi Niknamı küçənin ortasında yerə yıxır. Dostlar can çəkişən Niknamın ciblərini eşir, çamadanını əlindən dartıb çıxararaq heç bir şey olmamış kimi yollarına davam edirlər. Niknamın düşmənlər tərəfindən şəhid olunmasının real təsvirini verərkən Makulunun keçirdiyi iztirabları, nifrəti görməmək mümkün deyil. Cənazədən təzə uzaqlaşan dostlar qarətə qarışaraq gecənin davamını yaşayırlar. Ara-sıra onların iyrənc şüarları eşidilir. "Zindəbad əlahəzrəti Hümayun! Mürdəbad demokratlar!" Mənası: "yaşasın padşah, məhv olsun demokratlar". Beləliklə talançılar çoxalır, demokratların evləri, mətbəələr talan edilir. Daha sonra yazıçı Milli Hökumətin qatı düşmənləri olan Təbrizin ən böyük mürtəcisi Hacı Ələsgər, doktor İsgəndərxan, Cəmşidxan Marağalı, Beytulla tacir, Həsənxan Bağ-meşəli və Səttarzadədən ibarət şəxslərin keçirdiyi müşavirənin təsvirini verir. Hamısının kefi kökdür, Milli hökumət məmurlarından şikayətlənirlər. Hacı Ələsgər ondan 5 illik maliyyə hesabı istəyən maliyyəçilərin öldürülməsi üçün hər tərəfə adam salıb. Tapşırığı belədir ki, gecəni şəhərə kimi keşik çəkin və tapın, "iş gecələr görülər, gecələr. Malı sizin, canı bizim". Fikrində o qədər qatıdr ki, onları əldən buraxanların özləri demokratların yerinə ölməlidir.

Yazıçı əsərində ən çox iki məsələyə diqqət çəkir. Milli hökumət dövründə imkanı əldən gedən, işləmək istəməyən, vaxtilə xalqın qanını soraraq dolanan şəxslərin öz mənfəəti, ən acınacaqlısı isə əcnəbi "dostları"na yaranmaq istəyi. Bu vətən xainləri üçün rəhbərlərin əmrlərini yerinə yetirmək ən ümdə məsələdir. Amerikanın Təbriz konsuluna İsgəndərxanın Həsənxana yazdırdığı məktubun orijinalı belədir: "Amerika cümhuriyyətinin hörmətli Təbriz konsulunun hüzuruna. Neçə gündən bəri böyük konsulxana tərəfindən olunan köməklərə görə təşəkkür edirik. Biz aşağıda imza edənlər ölənə kimi o böyük hami, daha doğrusu, bizlərə təzə bir həyat və dirilik əta buyuran cənabın verdiyi əmrləri müqəddəs sayıb ona itaət etməyi özümüz üçün borc bilək" (1, 141). Məktubda haqqında söhbət açılan kömək deyəndə Amerika tərəfindən göndərilən silah nəzərdə tutulur. Təşəkkür məktubu hamı tərəfindən oxunandan sonra İsgəndərxan tərəfindən Amerikanın Təbriz konsuluna çatdırılır.

*(Davamı 6-cı səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

Əsərin məzmunundam məlum olur ki, Milli hökumətin məhv edilməsinə baxmayaraq, hökumət üzvləri, tək-tək fədailər gizli şəraitdə olsa belə işlərini davam etdirir.

Təbrizin uzaq küçələrindən birində Şeşgilan cavanlar təşkilatının katibi Məcid və təşkilatın üzvü Məhəmməd ağa yaşayır. Onlar bir həftə əvvəl "Şir-xurşid" səhnəsində məruzə ilə çıxış edən Pişəvəri haqqında söhbət edirlər. Pişəvəri məsləhət görmüşdü ki, bir müddət mübarizəmizi gizli olaraq aparaq. Rəhbərin bu sözlərini əsas tutan təşkilat üzvləri əvvəlcədən müəyyənləşdirilmiş firqə borcunu yerinə yetirməkdə hökmlü olduqlarını dilə gətirir, milli hökumətin dağıdılmasından ruhdan düşməyərək düşməni əzib dağıtmaq üçün fəaliyyətlərini birə yüz artırmaq barədə plan qururlar. Bəzi yoldaşların 5-3 nəfərin bir iş görə biləcəyinə inanmadığını görən Məcid deyir: "Əvvələn, biz beş-üç nəfər deyilik, neçə milyonluq xalqıq. Bu xalq öz parlaq tarixində dəfələrlə bu cür hadisələrlə qarşılaşıb, amma düşmənə əyilməyib və həmişə mərəkədən qalib çıxıbdır. Düşməni aradan qaldırmaq üçün indi yüzlərlə sənin və mənin kimi gənc gizli fəaliyyəyə başlamalıdır. Tehran cəlladları tərəfindən vəhşicəsinə öldürülən yüzlər və minlərlə fədailərimizin, vətəndaşlarımızın qanını almayınca heç bir azərbaycanlı rahatlanmayacaqdır. Mənə də görüm bu vaxt sənin ürəyin intiqam alovu ilə alovlanmırmı? " (1,143).

Makulu hekayəsindəki ataları öldürülüb evləri qarət olunan, qışın çovğununda küçələrə tullanan yetim uşaqları öz gözü ilə görmüşdü. Onların ah-naləsini eşidən yazıçının qəlbi də intiqam hissi ilə alovlanır. 21 azər günündən sonra İran jandarmları tərəfindən axtarılan Məcidin öldürülməsi təhlükəsi gündəmdədir. Ancaq ədəbi qəhrəman heç nədən qorxmur. Yeganə məqsədi gənclər təşkilatının fəaliyyətini genişləndirmək, devrilmiş Milli hökumət üçün ciddi bir iş görmək idi. Yazıçı ərbab və ərbabzadələrin gözündə şüursuz və haqq-hüququnu düşünməyən, ərbabın buyruğuna əməl edən kimi görünən Məcid, qardaşı və Qəhrəman kimi gənclərin fəaliyyətini yüksək qiymətləndirir. Onları səmimi və sədaqətli bir yoldaş, cəsarətli və şücaətli bir döyüşçü kimi təsvir edir. Onun qəhrəmanları həyatlarını ölüm təhlükəsinə atmaq bahasına da olsa xalqın canına, malına qəsd edən, Təbriz küçələrini demokratların qanına boyayan cəlladlardan intiqam almaq istəyir. Onlar firqənin Mərkəzi Komitəsinin gizli fəaliyyət yerini hələ tapmayıblar. Tapana qədər də boş durmayıb fəaliyyət planı hazırlayır və həyata keçirirlər. Makulunun təsvirinə görə Təbrizdə əsl partizan hərəkatı başlayır. Şəhərin binalarında asılmış "Yaşasın milli hökumət! Məhv olsun xainTehran hakimiyyəti!" sözləri firqənin yaşamasının sübutu kimi Məcid və Qəhrəmana ümid verir. Əsərdə təsvir olunanlar Təbrizdə həqiqətən baş verənlərlə birəbir üst-üstə düşür. Hətta əsərdə Azərbaycan yazıçılarının əsərlərinin yandırılması səhnəsinin təsviri real faktın bədii təsvirinin növbəti nümunəsidir. Bu səhnə xalqın mənəviyyatına vurulan zərbənin əksidir. Ancaq gizli fəaliyyət göstərən fədailər bunun cavabını layiqli şəkildə verməyi bacarırlar. Gecə ikən Maarif vəzirliyinin nəşriyyat ambarına girməyi bacaran Məcid sabah düşmənlərin, xainlərin yandıracağı kitab, jurnal, qəzet və s. arasına soyuqqanlılıqla partlayıcı maddə qoyur. Kitab yandırma təntənəsində həvəslə iştirak edən Həsənxan və bir neçə nəfər bomba partlayışından sağ çıxmadı. Bu, Tehran hökumətini təşvişə salmışdı. Makulu əsərində Təbrizin ağırlaşan vəziyyətinin təsvirində real faktlara istinad edir, Təbrizi və Cənubi Azərbaycanın başqa şəhər və kəndlərini bir yad qoşun kimi talan edən Tehran qoşununu "istila ordusu" kimi təqdim edir. Küçələrdə arxların içi demokratların meyidi ilə doludur, şəhərin bir çox yerində dar ağacları görünməkdədir, saysız-hesabsız insan həbsxanalara atılır və s. Cəhənnəm zəbanisi kimi şəhəri qorxuya salan Tehran hökuməti, mürtəcilər və Tehran zabitləri, ajan və əmniyyələr xalqı hər tərəfdən sıxır, maddi və mənəvi məhvə sürükləyir. Yazıçı həmin vaxt baş verən qətl-qarəti çılpaqlığı ilə təsvir edərək Tehran hökumətinin iç üzünü aça bilmişdir. Həmin vaxt şair Niknamın fədailər tərəfindən intiqamının alınması da əsərdə öz real əksini tapmışdır. Öldürülən hər firqə üzvünün, fədainin əvəzində xainlər, hacı adlandırılanlar bir-bir xəbərsiz-ətərsiz yoxa çıxır, bir daha geri qayıtmırdı. Hekayə Azərbaycan demokratik cavanlar təşkilatının yaratdığı "İntiqam məhkəməsi"nin hazırladığı və Təbriz küçələrinə yapışdırdığı bir elanla başa çatır: "Qoy hamı bilsin ki, Azərbaycan demokratik firqəsi və onun mübariz dəstəsi olan demokrat cavanlar ittifaqı yaşayır və vətən düşmənlərini məhv etməyə var qüvvəsiylə çalışacaqdır. Azərbaycan xalqının azadlığı yolundakı mübarizəsi davam edir. Xalq, vətən və azadlıq düşmənlərinə ölüm!" (1, 163)

## SSDSSBİYYAT SİYAHISI


1. *A.Makulu (Pənahi). Təbriz gecələri. Bakı, 1950*
2. *Ə. Həbibov. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı. 1988*
3. *G.Ağayev. Təbriz ədəbi mühiti. Bakı, 2004*
4. *C.Vəkilov. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı, 1991*
5. *P. Məmmədli. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı, 2009*




**Sakibə ələsgərova ADPU.**
**Azərbaycan və dünya ədəbiyyatı kafedrasının dosenti, əməkdar müəllim**